# Ulu öndərin xatirəsinə həsr olunmuş intellektual yarış




**Dekabrın 7-də "Yüksəliş" müsabiqəsi tərəfindən ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş intellektual yarış keçirilib. Yarış müsabiqənin qalibləri, finalçıları və yarımfinalçıları arasında təşkil edilib.**

"Yüksəliş" kvizinin qış mövsümündə 43 komanda tərkibində, ümumilikdə, 252 iştirakçı mübarizə aparıb. Gərgin və maraqlı mübarizə nəticəsində birinci yerə "White Walkers" komandası layiq görülüb. İkinci yerin qalibi "NeveRest", üçüncü yerin sahibi isə "Se7en" komandaları olub.

"Yüksəliş" müsabiqəsi dördüncü dəfədir ki, qaliblər, finalçılar və yarımfinalçılar arasında intellektual yarış keçirir.

Xatırladaq ki, "Yüksəliş" müsabiqəsi Azərbaycan Prezidentinin 2019-cu il 26 iyul tarixli Sərəncamına əsasən təsis olunub. Müsabiqənin məqsədi 21–51 yaş aralığında olan, intellektual səviyyəsi yüksək və azı iki il idarəçilik təcrübəsinə malik perspektivli rəhbər şəxslərin müəyyənləşdirilməsini, dəstəklənməsini və ölkədə kadr ehtiyatı bankının yaradılmasını təmin etməkdir. "Yüksəliş" müsabiqəsinin qalibini bir il ərzində idarəçi rəhbərlərdən – böyük şirkətlərin top-menecerlərindən və dövlət orqanlarının rəhbərlərindən fərdi karyera məsləhətləri almaq imkanı və 20 min manat məbləğində pul mükafatı gözləyir.

***XQ***

Xalq qəzeti .- 2024.- 8 dekabr (№271).- S.2.